**UDC:** 070.
**LBC:** 76.01; 76.029
**MJ №** 274
10.33864/2617-751X.2025.v8.i2.143-152

# Media in Democratic States in the Context of a Tool of Different Interests

**Esmira Rovshanova***

**Abstract.** In democratic states, free and independent journalism is a fundamental pillar of a free and civil society. The role of mass media in the process of building an independent state and civil society is undeniable. This article analyzes the cases where mass media historically the most powerful propaganda tool has been used as an instrument of influence. Even in the world's most developed countries, the freedom of the press and democratic journalism are shown, through various examples, to be under threat, and the underlying causes of these threats are explored. Regardless of geographical location, freedom of speech is considered one of the most essential human rights, and press freedom is regarded as the foundation of human rights. Press freedom guarantees the protection of other freedoms. As Mammad Amin Rasulzade stated, "The enslavement of the press leads to moral decay, eliminates noble qualities, promotes lying, theft, dishonesty, and espionage, and results in literary and ideological corruption". He viewed press freedom as a vital element for the existence of democracy in society. In a democratic system, just as the state protects the interests of the media, the media must also, when necessary, act in accordance with public, national, and state interests, striving toward the creation of an ideal society. Media institutions that are aware of their responsibilities understand that public interests cannot be safeguarded without protecting state interests. For the consolidation of state sovereignty, national interests must align with nationwide interests. Journalists must adhere to international principles and carry out their duties based solely on facts truthfully, impartially, and objectively without becoming tools in the hands of political groups.

**Keywords:** democracy, free press, freedom of speech, mass media, international principles, threat

---

* Teacher of the Department of New Media and Communication Theory, Faculty of Journalism, Baku State University; Baku, Azerbaijan
E-mail: esmirarovshanova@gmail.com
https://orcid.org/0000-0002-1635-6971
**To cite this article:** Rovshanova, E. [2025]. Media in Democratic States in the Context of a Tool of Different Interests. *"Metafizika" journal, 8*(2), pp.143-152.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i2.143-152

***Article history:***
*Received: 24.01.2025*
*Accepted: 15.04.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 070.
**ББК:** 76.01; 76.029
**MJ №** 274
10.33864/2617-751X.2025.v8.i2.143-152

# Медийное Разнообразие в Демократических Государствах в Контексте Различных Интересов

**Эсмира Ровшанова***

**Абстракт.** В демократических государствах свободная и независимая журналистика является опорой свободного и гражданского общества. Роль средств массовой информации в процессе строительства независимого государства и гражданского общества неоспорима. В статье анализируются случаи использования средств массовой информации, являющихся самым мощным пропагандистским оружием всех времён, в качестве инструмента влияния. Приводятся факты, подтверждающие, что даже в наиболее развитых странах мира свобода прессы и демократическая журналистика находятся под угрозой, и исследуются причины этих явлений. Независимо от географического положения, свобода слова считается одной из важнейших прав и свобод человека, а свобода прессы - основой прав человека. Свобода прессы является гарантом других свобод. Мухаммед Амин Расулзаде, утверждавший, что «рабство прессы порождает моральное разложение, устраняет благородные качества, поощряет ложь, воровство, предательство и шпионаж, способствует литературному и идеологическому упадку», считал свободу прессы необходимым условием демократии в обществе. В условиях демократического строя государство защищает интересы СМИ, а медиа в свою очередь должны действовать, исходя из общественных, национальных и государственных интересов, способствуя формированию идеального общества. Ответственные медиа-организации осознают, что без защиты государственных интересов невозможно обеспечить общественные интересы. Для укрепления суверенитета государства национальные интересы должны совпадать с общенациональными. Журналисты, руководствуясь международными принципами, должны выполнять свою миссию объективно, беспристрастно и правдиво, опираясь исключительно на факты и не становясь инструментом в руках политических групп.

**Ключевые слова:** демократия, свободная пресса, свобода слова, средства массовой информации, международные принципы, угрозы

* Бакинский Государственный Университет, преподаватель кафедры «Новые медиа и теория коммуникации»; Баку, Азербайджан
E-mail: esmirarovshanova@gmail.com
https://orcid.org/0000-0002-1635-6971

**Цитировать статью:** Ровшанова, Э. [2025]. Медийное Разнообразие в Демократических Государствах в Контексте Различных Интересов. *Журнал «Metafizika», 8(2),* с.143-152.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i2.143-152

***История статьи:***
*Статья поступила в редакцию: 24.01.2025*
*Отправлена на доработку: 26.02.2025*
*Принята для печати: 15.04.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 070.
**KBT:** 76.01; 76.029
**MJ №** 274
10.33864/2617-751X.2025.v8.i2.143-152

# Demokratik Dövlətlərdə Media Müxtəlif Maraqlar Aləti Kontekstində

**Esmira Rövşənova***

**Abstrakt.** Demokratik dövlətlərdə azad, müstəqil jurnalistika məhz azad, sivil cəmiyyətin dayağıdır. Müstəqil dövlət, vətəndaş quruculuğu prosesində kütləvi informasiya vasitələrinin rolu danılmazdır. Məqalədə bütün dövrlərin ən güclü təbliğat silahı olan kütləvi informasiya vasitələrindən alət kimi istifadə olunması halları təhlil olunur. Dünyanın ən inkişaf etmiş dövlətlərində belə azad mətbuatın, demokratik jurnalistikanın təhlükə altında olması yeri gəldikcə faktlarla göstərilir və səbəbləri araşdırılır. Yaşadığı coğrafiyadan asılı olamayaraq söz azadlığı hüquq və azadlıqlardan ən ümdəsi, mətbuat azadlığı isə insan haqlarının bünövrəsi hesab olunur. Mətbuat azadlığı başqa azadlıqların qarantıdır. “Mətbuatın əsarəti əxlaq pozğunluğu törədir, əxlaq gözəlliyi və yaxşı xüsusiyyətləri aradan çıxarır, yalan danışmağı, oğurluğu, əyrilik və casusluğu yayır, ədəbi və qələm pozğunluğu meydana çıxarır” deyən Məhəmməd Əmin Rəsulzadə mətbuat azadlığını cəmiyyətdə demokratiyanın mövcudluğu üçün vacib hesab edirdi. Demokratik quruluşda dövlət medianın maraqlarını müdafiət etdiyi kimi media da yeri gəldikcə ictimai, milli və dövlət maraqlarından çıxış etməli, ideal cəmiyyətin formalaşması üçün çalışmalıdır. Öz öhdəliyinin fərqinə varan media qurumları yaxşı anlayır ki, dövlət maraqları müdafiə olunmadan ictimai maraqlar heç vaxt qoruna bilməz. Dövlətin suverenliyinin möhkəmlənməsi üçün milli dövlət maraqları ilə ümummilli maraqlar üst-üstə düşməlidir. Jurnalistlər isə daima beynəlxalq prinsiplərdən çıxış edərək doğru, düzgün, tərəfsiz və qərəzsiz olaraq yalnız faktlara söykənməklə, bəzi siyasi qruplar əlində alətə çevrilməməklə bu vəzifələrini yerinə yetirməlidir.

**Açar sözlər:** demokratiya, azad mətbuat, söz azadlığı, kütləvi informasiya vasitələri, beynəlxalq prinsiplər, təhdid

---

* Bakı Dövlət Universiteti, “Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrası”nın müəllimi; Bakı, Azərbaycan
E-mail: esmirarovshanova@gmail.com
https://orcid.org/0000-0002-1635-6971
**Məqaləyə istinad:** Rövşənova, E. [2025] Demokratik Dövlətlərdə Media Müxtəlif Maraqlar Aləti Kontekstində. *“Metafizika” jurnalı, 8*(2), səh.143-152.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i2.143-152

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 24.01.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 26.02.2025*
*Çapa qəbul edilmişdir: 15.04.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Söz azadlığı olmayan yerdə mətbuat azadlığı yoxdur. Mətbuat azadlığı olmayan yerdə isə demokratiya. Demokratik dövlətlərdə azad, müstəqil jurnalistika məhz azad, sivil cəmiyyətin dayağıdır. Belə ki, söz, fikir, mətbuat azadlıqları şəffaflıq və siyasi plüralizmin təminatçısı hesab olunur və demokratik inkişafı şərtləndirir. Görkəmli publisist Üzeyir Hacıbəyli mətbuat azadlığının əhəmiyyətindən, jurnalistikanın vəzifəsindən bəhs edərkən yazırdı: "Mətbuatın vəzifeyi-müqəddəsəsinə (müqəddəs vəzifəsinə) ehtiram və əhəmiyyət nəzərilə baxanlar hürriyyəti-mətbuat və azadiyi-kəlamın mənayi-həqiqisinə layiqincə vaqif olub, qəzet sütunlarını öz şəxsi mənfəətinə alət etmək təşəbbüsündən hər vaxt intixab (ayırd) etməlidirlər" [Hacıbəyli, 2005, s.278]. O, azad sözün, azad mətbuatın bütün xalq üçün faydasından bəhs edərək, bunların sayəsində ümum əhalinin və ya məlum bir camaatın mübtəla (düçar) olduğu dərdi şərh edib müalicəsi üçün tədbirlər axtarmağın mümkün olduğunu bildirirdi.

Azad mətbuat demokratiyanın əsas göstəricisidir, çünki jurnalistlər sosial məsuliyyət daşıyaraq demokratiyanın əsas baza dəyərlərini inkişaf etdirirlər, demokratiyaya xidmət göstərirlər. Hətta bəzi nəzəriyyəçilər demokratik jurnalistikanı insanın azad söz, hüquq və sərbəst toplaşmaq hüququnun təminatçısı kimi dəyərləndirir və beləcə jurnalistikanın demokratiya ilə birbaşa əlaqəsinin olduğunu və onun formalaşmasındakı rolunu açıq bəyan edirlər. Bu öhdəliyi jurnalistlər qarşısında qoyulmuş, ictimai mənafeni qorumaq üçün bir növ missiya kimi də dəyərləndirmək olar. Lakin unutmaq olmaz ki, heç bir hüquq və azadlıq hüdudsuz deyil. Nəzəriyyə elə bunu da tələb edir ki, missiyanı yerinə yetirərkən ehtiyatlı olmaq, beynəlxalq standartları, prinsipləri, etik normaları, həqiqətə xidməti, insani dəyərlərə hörməti hər zaman göz önündə tutmaq lazımdır. Çünki, bu sənədlər müxtəlif konvensiyalar, saziş və sənədlərlə tənzimlənir.

## 2.Mediadan müxtəlif maraqlar üçün sui-istifadə edilməsi faktları

Bu gün azad mətbuat deyim yerindəcə bütün dünyada təhlükədədir. Hazırda bütün dünyada özündə demokratik dəyərləri daşıyan və ya daşımaq istəyən kütləvi informasiya vasitələrinin çoxu isə senzura, qeyri professionallıq, siyasi asılılıq, rüşvət, yalan xəbər ("fake news"), şəxsi mənafe və s. kimi problemlərlə üz-üzə qalmaqdadır. Hətta dünyanın ən inkişaf etmiş dövlətlərində belə azad mətbuat, demokratik jurnalistika bu mənada təhlükə altındadır. Buna ABŞ-da bir sıra federal məhkəmələrin jurnalistin öz konfidensial informasiya mənbələrini açmamaq hüququnu tanımaqdan imtinalarını, hətta jurnalist Coş Volfun öz videoarxivini təhvil verməkdən boyun qaçırdığı üçün həbs edilməsini, Əl-Cəzirə telekanalının operatoru Sami əl-Həcin məhkəməsiz Amerikanın Quantanamo düşərgəsində saxlanılmasını, Böyük Britaniyada

2011-ci ildə iğtişaşlar zamanı ölkə üzrə sosial şəbəkələrə girişin məhdudlaşdırılmasını, Fransada dövlət səviyyəsində baş qaldıran anti-demokratik hadisələr fonunda fəaliyyət başında olan polisin görüntüsünün çəkilməsinin və yayımlanmasının qadağan edilməsini, Asiyanın demokrat ölkəsi hesab olunan Yaponiya mediasında imperatorun əleyhinə tənqidi fikir səsləndirməyin ümumiyyətlə qadağan olunmasını, Almaniyada 2015-ci ildə “Netzpolitik.org” saytının iki blogger jurnalisti Makus Bekedal və Andre Maysterin dövlətə məxsus məxfi materialları və sənədləri ictimaiyyətə açıqlamaqda əsassız olaraq ittiham edilərək həbs edilməsini və məhz Almaniyada hökumətin mediaya qarşı basqılarına etiraz olaraq ATƏT tərəfindən Almaniyaya medianın sıxışdırılması ilə əlaqədar xəbərdarlığın olunmasını və bir çox bu kimi nümunələri misal çəkmək olar. Bu nümunələrdə söz və mətbuat azadlığına, ümumilikdə isə kütləvi informasiya vasitələrinin azad fəaliyyətinə xələl gətirən ciddi nüanslar yer almaqdadır. Amma son illərdə dünya jurnalistikada daha bir problemlə üz-üzə qalmaqdadır. Bu isə söz, fikir, ifadə azadlığı prinsiplərindən, kütləvi informasiya vasitələrindən və onun imkanlarından müəyyən dairələrin maraqları üçün sui-istifadə edilməsi hallarıdır. Məsələn, dünya dövlətlərinə daima demokratiya dərsi keçən və özünü qərbin ən demokratik ölkəsi kimi təqdim edən Fransa 2015-ci ildə “Charlie Hebdo” satirik jurnalında bütün müsəlman aləmi üçün müqəddəs şəxs hesab olunan və deyim yerindəcə bütün müsəlman aləminin keçilməsi qəbul olunmayacaq qırmızı xətti hesab olunan Məhəmməd Peyğəmbərlə bağlı karikaturalar çap olundu. “Söz azadlığı” adı altında həyata keçirilən Məhəmməd Peyğəmbəri təhqir xarakterli bu karikaturaların müsəlman aləminin hisslərini yaralayacağı, ölkə ərazisində yaşayan 5 milyon müsəlmanın narazılıq və etirazlarına səbəb olacağı, bəzi radikal terror qrupları tərəfindən jurnala hücumların olması gözlənilən idi və belə də oldu. Ancaq günü-gündən müsəlmanlara qarşı artan basqılar fonunda 2020-ci ilin sentyabr ayının 2-də adı çəkilən jurnal yenidən Məhəmməd Peyğəmbərlə bağlı karikaturanı eyni təhqiramiz üslubda çap etdi [WWW.rbc.ru., 2020]. Və bu hadisə manipulyasiya edilərək kütlələrdə qəzəb və nifrət hissinin pik həddinə gəlib çatması fonunda bir müəllimin qətlə yetirilməsi və ölkə miqyasında bir daha islamafobiya şüarlarının səsləndirilməsi ilə nəticələndi. Bütün bu yaranan vəziyyətə aydınlıq gətirmək və ölkə daxilindəki iğtişaşlara, anti-islamizmə son qoymaq əvəzinə Fransa hökuməti daha da irəli gedərək bu karikaturaları kitab formatında təhsil müəssisələrində paylayacaqlarını açıqladı [Yeni Şafak qazetesi, 2020]. Və “söz azadlığı” adı altında əslində məqsədin tamam başqa olması bir daha məlum oldu.

**3.Beynəlxalq prinsiplər Qərbin basqıları altında**

Məhşur fransız egzistensialisti, azadlıq carçısı Jan Pol Sartr deyirdi: “Mənim azadlığım, sənin azadlığın başlayan yerdə bitir”. Bu gün azadlıq ideyasından böyük dövlətlər digər dövlətlərə təzyiq və təsir etmək üçün alət kimi istifadə edirlər. Məqsədlərinə çatmaq üçün isə konkret olaraq bütün dövrlərin ən güclü təbliğat silahı olan kütləvi informasiya vasitələrindən alət kimi istifadə etməkdən çəkinmirlər. Buna isə ən bariz nümunə olaraq İkinci Qarabağ savaşı zamanı bəzi Fransa, Almaniya, Rusiya kimi dövlətlərin rəsmi dairələrinin və eləcə də kütləvi informasiya vasitələrinin Azərbaycanın haqlı savaşında sərgilədikləri qeyri-obyektiv, gerçəklikdən uzaq, tərəfli və qərəzli münasibətlərini göstərmək olar. Xatırladaq ki, 27 sentyabr tarixində Ermənistan tərəfinin atəşkəsi pozması və Azərbaycan ərazisinə silahlı hərbi hücumuna qarşı Azərbaycan ordusu əks-hücum əməliyyatı həyata keçirdi. Və beləliklə, Azərbaycan tarixində şanlı qələbə kimi qalacaq 44 günlük İkinci Qarabağ savaşı başlandı. Döyüş meydanında tarixi ədalət bərpa edildi. Azərbaycanın 30 ilə yaxın işğala məruz qalmış Qarabağ torpaqları azad edildi. 1993-cü ildən BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağla bağlı 822, 853, 874 və 884 saylı qətnamələrinin hər birində ermənilərin təcavüzkar siyasətləri pislənilsə də, erməni hərbi birləşmələrinin zəbt etdikləri Azərbaycan ərazilərini qeyd-şərtsiz tərk etmələri birmənalı şəkildə tələb olunsa da bu tələb 30 ilə yaxın müddətdə yerinə yetirilməmiş olaraq qaldı. Əksinə atəşkəs dövründə belə Ermənistan öz işğalçılıq siyasətindən əl çəkmədiyini nümayiş etdirmiş və tez-tez Azərbaycan torpaqlarına hücum etməyə cəhd göstərmişdir. Rəsmi rəqəmlərə görə təkcə bu il sentyabr ayının 1-dən 27-dək Ermənistan silahlı qüvvələri əsasən iriçaplı pulemyotlardan və snayper tüfənglərindən istifadə etməklə 1082 dəfə atəşkəs rejimini pozaraq müxtəlif təxribatlar törətmişlər. ATƏT-in prinsipləri əsasında sülh yolu və danışıqlar vasitəsi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün yaradılmış olan Minsk qrupu belə 30 ilə yaxın müddətdə müvafiq mandata sahib olsa da münaqişənin həllində heç bir rol oynaya bilmədi. Daima beynəlxalq ictimaiyyət tərəfindən Dağlıq Qarabağ məsələsi ilə bağlı Azərbaycan tərəfinin haqlı tələblərinə qarşı soyuq münasibət göstərilmiş, təcavüzkarla təcavüzə məruz qalan tərəf arasında heç bir fərq qoyulmamışdır. Bütün bu hadisələrin fonunda isə tarixi ədalət yalnız döyüş meydanında bərpa edilmiş, ordu-Ali Baş Komandan-xalq üçlüyünün dəmir yumruğa çevrilməsi Azərbaycanın əzəli torpaqlarını işğaldan azad etməsi, qələbə qazanması ilə nəticələndi. Vətən müharibəsi adlandırılan İkinci Qarabağ savaşı başlayan gündən nəinki yerli, eləcə də dünyanın bütün kütləvi informasiya vasitələrinin diqqət mərkəzində olmuş və konfliktlə bağlı çoxlu sayda yazılar çap edilmişdir. Lexis Nexis sorğu şirkəti “RİA Novosti”nin sifarişi ilə 20 sentyabr- 20 oktyabr tarixləri arasında Qarabağdakı vəziyyətin xarici mətbuatda işıqlandırılması ilə bağlı dünya mətbuatında yer alan

xəbərləri araşdırmışdır. Araşdırmada münaqişə haqqında ən fəal yazan jurnalistlərin Rusiya- ayda 82 mindən çox məqalə və şərh. 2-ci yerdə ABŞ (təxminən 27 min), daha sonra Avropa ölkələri- Böyük Britaniya (təxminən 15 min), Almaniya (təxminən 12 900) və Fransa (təxminən 6 min), 6-cı yerdə Türkiyə gəlir (2.2 mindən bir az çox). Qazaxıstan isə 145 qeyd ilə sonuncu yerdədir [Sia.az., 2020]. Yazılara göz gəzdirərkən hadisələrə müxtəlif yanaşmaların olduğunu görmək mümkündür. Bəzi Şərq ölkələri, xüsusilə Türkiyə mediası hər gün hadisələri olduğu kimi işıqlandırmaqla həm həqiqətləri dünyaya çatdırır, həm də haqlı savaşında Azərbaycanın yanında olduğunu bildirən materiallar verirdi. Fransa, Almaniya və qismən də ABŞ mediasında qərəzli, birtərəf mövqenin, Rusiya kütləvi informasiya vasitələrində hər iki tərəfin mövqeyini işıqlandırmağa əsaslandırılmış balanslı mövqenin tutulmasına çalışılsa da bunu tam mənasında yerinə yetirilmədiyini görürük. Gürcüstan, Ukrayna, Çin, İsrail kimi dövlətlərin kütləvi informasiya vasitələri isə hadisələri balanslı işıqlandırmağa çalışmışlar. Ancaq təəssüflə qeyd edək ki, Şərq dövlətlərinə daima demokratiyadan, beynəlxaq prinsiplərdən, etik normalardan dərs keçən dünyada nüfuz qazanmış Qərbin məhşur BBC, CNN, Euronews, Fox News kimi media orqanları bu münaqişədə tamam başqa mövqe tutaraq qərəzli, birtərəfli və yalan xəbər (fake news) verdilər. Məsələn: BBC 30 sentyabr tarixində Azərbaycana müharibə başlamazdan öncə Türkiyə idarəsi altında olan Suriya ərazilərindən muzdluların gətirilməsi ilə bağlı məqalə verdi. Eyni zamanda Fransa 24 kanalının Observers proqramında suriyalı silahlıların Azərbaycana getməyə hazırlaşdıqlarını göstərən bir neçə video yayımlandı. Ermənilərin Teleqram kanalından götürülən bu videoların daha sonra Suriya üzrə ekspertlər Lindi Snell və Elizabet Tsurkovun sosial şəbəkə paylaşımlarında götürüldüyü və videoların geolokasiyalarının Ermənistan respublikasının ərazisi olduğu, görüntülərdəki ərəblərin isə bir neçə il əvvəl vəfat etmələri məlum oldu [WWW.eureporter.co., 2020].

25 oktyabrda Amerikanın “Fox News” televiziya kanalının Azərbaycan Respublikası Prezidenti İlham Əliyevdən aldığı müsahibəyə diqqət edək. Müxbirin sualları verərkən beynəlxalq prinsipləri pozaraq tərəfli və qərəzli mövqe tutduğu elə müsahibənin əvvəlindəcə “Sizin qüvvələr döyüşlərə başladı. Nəyə görə Siz indi hərəkətə keçməyə qərar verdiniz?” sualı ilə aydın oldu [President.az., 2020]. Müsahibə əvvəldən sonadək həqiqəti əks etdirməyən qərəzli, birtərəfli verilən suallar fonunda davam etdi. Eyni fikirləri oktyabrın 28-də Almaniyanın ARD televiziya kanalının Prezident İlham Əliyevdən aldığı müsahibəyə də aid etmək olar [President.az., 2020]. Lakin Prezident İlham Əliyevin bu cür provakativ suallar qarşısında tutarlı, təmkinli hazırlıqlı cavabları əsl həqiqəti ortaya qoydu. Əsasən erməni lobbisinin təsiri

altında fəaliyyət göstərən Fransa kütləvi informasiya vasitələri konflikt dövründə yayımladıqları materiallarında jurnalistikanın bütün norma və prinsiplərinin pozulması ilə müşaiyət olunan materiallar dərc etdirərək işğalçı Ermənistanın yanında olduqlarını bir daha açıq-aydın nümayiş etdirdilər. Hətta Fransanın TF1 televiziya kanalında cəbhə bölgəsindəki real vəziyyəti, Azərbaycan ordusunun şücaəti, Ermənistan silahlı qüvvələrinin mülki insanları və infrastrukturu hədəfə alması, Gəncə şəhərini qadağan olunmuş silahlardan bombardman etməsi barədə yayımlanan reportajdan sonra müəllif, jurnalist Liseron Budulu kütləvi şəkildə ermənilərin təhqir və şantajlarına məruz qalmışdır. Fransadakı erməni təşkilatları koordinasiya şurasının (CCAF) həmsədri Papazyan televiziyaya qarşı açıq-aydın etirazlara çağırış etmiş, kanalın boykot edilməsi barədə təkliflər irəli sürmüşdür [Report.az., 2020]. Hətta kanalın rəhbər şəxslərindən bəzilərinin ermənilər tərəfindən başlarının kəsilməsi təhdidi ilə üzləşdiyi bildirilir. Kütləvi təhdidlərdən sonra kanal öz saytından reportajın linkini çıxarmağa məcbur oldu.

## 4.Nəticə

Bütün bu misallar söz və mətbuat azadlığının hətta ən demokratik hesab edilən dövlətlərdə belə təhlükə altında olduğunu sübut edir.

44 günlük Vətən savaşı Azərbaycanın təkcə hərb meydanında deyil, eləcə də informasiya savaşında da qələbəsi ilə yekunlaşdı. Çünki Azərbaycan müstəqilliyinin ilk illərindən demokratik dövlət, vətəndaş quruculuğu prosesində kütləvi informasiya vasitələrinin rolunu və yerini xüsusi qiymətləndirən Ümummilli Lider Heydər Əliyev azad sözü demokratik dövlət quruculuğunun əsas təkanverici qüvvəsi hesab etmişdir. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, prezident İlham Əliyevin də qeyd etdiyi kimi "*Bu gün biz siyasi islahatları dərinləşdirərək bütün azadlıqları- söz azadlığını, mətbuat azadlığını, sərbəst toplaşma azadlığını, siyasi fəaliyyət azadlığını təmin etmişik*" [President.az., 2018]. Azərbaycana qarşı daima böhtan və qarayaxma siyasəti aparan bəzi dövlətlərə veriləcək ən tutarlı cavab ölkə prezidenti İlham Əliyevdən oldu: Biz Azərbaycanı demokratiya nümunəsi hesab etmirik amma özümüzü guya demokratmış kimi də aparmırıq. Çatışmazlıqlarımız var. Amma məqsədimiz Azərbaycanı inkişaf etmiş, sivilizasiyalı, demokratik prinsiplərlə yaşayan bir dövlətə, azad sözün və fikrin olduğu bir cəmiyyətə çevirməkdir.

## ƏDƏBİYYAT

1. Hacıbəyli, Ü. (2005). *Seçilmiş əsərləri*. Şərq-Qərb, 456 s.
2. Prezident.az. (18.04.2018). *İlham Əliyevin andiçmə mərasimində nitqi*. https://president.az/az/articles/view/28071
3. Prezident.az. (25.10.2020). *İlham Əliyevin ABŞ-ın “Fox News” televiziya kanalına müsahibəsi*. https://president.az/az/articles/view/44279
4. Prezident.az. (31.10.2020). *İlham Əliyevin Almaniyanın ARD televiziya kanalına müsahibəsi*. https://president.az/articles/45111
5. Report.az. (23.10.2020). *Ermənilər cəbhə xəttindən reportaj hazırlayan Fransa kanalının jurnalistini təhdid etdilər*. https://report.az/qarabag/ermeniler-cebhe-xettinden-reportaj-hazirlayan-fransa-kanalinin-jurnalistini-tehdid-etdiler/
6. Sia.az. (30.10.2020). *Qarabağ müharibəsi xarici mediada: hansı ölkədə necə təqdim olunur?* https://sia.az/az/news/politics/835158.html
7. Yeni Şafak qazetesi. (24.09.2020). *Devlet provakasyonu*. https://www.gastearsivi.com/gazete/yeni_safak/2020-10-24/1
8. Eureporter.co. (10.11.2020). *Qarabağ müharibəsi: Qərb mediasında saxta xəbərlər necə yaranır*. https://www.eureporter.co/general/2020/11/10/war-in-karabakh-how-fake-news-appears-on-western-media/
9. RBC.ru. (04.11.2020). *Charlie Hebdo Fransada baş verən terror aktlarından sonra karikatura dərc edib*. https://www.rbc.ru/rbcfreenews/5fa27c659a79477414550e06

## REFERENCES

1. Hajibeyli, U. (2005). *Selected works*. Sharq-Garb, 456 p. (in Azerbaijani)
2. President.az. (2018, April 18). *Speech by Ilham Aliyev at the inauguration ceremony*. https://president.az/az/articles/view/28071 (in Azerbaijani)
3. President.az. (2020, October 25). *Ilham Aliyev’s interview with the U.S. television channel “Fox News”*. https://president.az/az/articles/view/44279 (in Azerbaijani)
4. President.az. (2020, October 31). *Ilham Aliyev’s interview with the German television channel ARD*. https://president.az/articles/45111 (in Azerbaijani)
5. Report.az. (2020, October 23). *Armenians threatened the journalist of the French channel who was preparing a report from the front line*. https://report.az/qarabag/ermeniler-cebhe-xettinden-reportaj-hazirlayan-fransa-kanalinin-jurnalistini-tehdid-etdiler/ (in Azerbaijani)

**6.** Sia.az. (2020, October 30). *The Karabakh war in foreign media: How is it presented in different countries?* https://sia.az/az/news/politics/835158.html (in Azerbaijani)
**7.** Yeni Shafak Newspaper. (2020, September 24). *State provocation*. https://www.gastearsivi.com/gazete/yeni_safak/2020-10-24/1 (in Turkish)
**8.** Eureporter.co. (2020, November 10). *The Karabakh war: How fake news appears in Western media*. https://www.eureporter.co/general/2020/11/10/war-in-karabakh-how-fake-news-appears-on-western-media/ (in Azerbaijani)
**9.** RBC.ru. (2020, November 4). *Charlie Hebdo published a cartoon after the terrorist attacks in France*. https://www.rbc.ru/rbcfreenews/5fa27c659a79477414550e06 (in Russian)